# Azərbaycan əsgərinin addımı güvən, baxışı ümid, duruşu qalibiyyətdir

*Vətən... Bu söz eşidilən kimi qəlb iftixarla çırpınır. Vətən hər daşında tarix yazılan, köksündən ana duası ucalan, əsgər andlı müqəddəs torpaqdır. Xalq yurdunda azad, təhlükəsiz yaşayanda əzəmətli dağlar ucalığın, mətinliyin rəmzi olur. Vətən torpağının hər qarışı əmanətdir, üzərində addımlayan hər insan isə vicdanla silahlanmış, vətənə sədaqət andı içən əsgər olmalıdır. Əgər dövlətin mövcudluğu onun ərazi bütövlüyünün təminatı ilə ölçülürsə, bu missiyanın daşıyıcısı və təminatçısı məhz əsgər və zabitlərdir. Azərbaycan əsgəri milli təhlükəsizlik arxitekturasının təməl sütunudur. Onun fəaliyyəti strateji sabitliklə və milli etimadla sıx şəkildə əlaqəlidir. Mərd, qorxmaz, qəhrəman əsgərlər gecənin ən qaranlıq anında, qışın sərtliyində, yayın istisində gözlərini qırpmadan səngərdə dayanır, keşik çəkirlər. Yastığı vətən daşı olan əsgərin addımı güvən, baxışı ümid, duruşu qalibiyyətdir. O, düşmənin qorxduğu səda, millətin güvəndiyi dayaq, vətənin əbədi qalxanı və şərəfidir. Bayraq ucaldıb başı dik olan da odur, düşməni susdurub tarix yazan da...*

Azərbaycanda milli ordu quruculuğu prosesi tarixi baxımdan son dərəcə mürəkkəb, çoxşaxəli və ziddiyyətli mərhələlərdən keçmişdir. Keşməkeşli sınaqların uğurlu nəticəsi kimi hazırda beynəlxalq hərb arenasında öz mövqeyini təsdiqləmiş, müasir döyüş taktikası və silah-sursatla təchiz olunmuş, peşəkar kadr potensialına sahib olan Azərbaycan Silahlı Qüvvələri varislik prinsipinin əsasıdır. Məhz bu güclü və nizami ordunun təşəkkül tapması və sonrakı inkişaf mərhələləri ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi liderin həm sovet dönəmində, həm də müstəqil Azərbaycanın siyasi rəhbəri kimi fəaliyyəti zamanı prinsipial mövqeyi strateji baxışı və uzaqgörən siyasəti ordu quruculuğu sahəsində əhəmiyyətli dönüş nöqtəsidir. Xüsusilə 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə hərb elminin təməl daşı qoyulub. Həmin dövrdə azərbaycanlı gənclərin hərbi sahəyə cəlb edilməsi, onların bu sahədə ixtisaslaşması və gələcək üçün peşəkar zabit heyətinin formalaşdırılması olduqca mürəkkəb, lakin məqsədyönlü proses idi. Bu kontekstdə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış Hərbi Məktəbin yaradılması mil-



li şüurun ordu səviyyəsində tətbiqi baxımından strateji mahiyyət daşıyırdı. Həmin məktəb vasitəsilə formalaşdırılan hərbi kadrlar gələcəkdə müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin əsas komanda heyətini təşkil etmişlər.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşıda duran əsas vəzifələrdən biri milli ordu quruculuğu idi. Lakin bu sahədə ciddi və məqsədyönlü addımlar yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi rəhbərliyə qayıdışından sonra atıldı. Müstəqilliyin ilk illərindəki mürəkkəb ictimai-siyasi vəziyyət digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da ciddi çatışmazlıqlara səbəb olmuşdu. Hətta həmin dövrdə silahlı qüvvələr xalqın deyil, ayrı-ayrı siyasi dairələrin və qrupların alətinə çevrilmişdi. Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan Silahlı Qüvvələrinin formalaşması istiqamətində ciddi islahatlara start verildi. Onun rəhbərliyi ilə ordunun maddi-texniki bazası möhkəmləndirildi, nizami hərbi sistem quruldu, hərbi-vətənpərvərlik ruhunun cəmiyyətə aşılanması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Gənclərdə vətənə sədaqət və hərbi xidmətə maraq hissi gücləndi. Ulu Öndər Heydər Əliyevin 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin I forumunda səsləndirdiyi fikirlər bu gün də strateji aktuallığını və ideoloji gücünü qoruyub saxlayır. Dahi liderimiz böyük uzaqgörənliklə demişdi: "Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik… Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir". Tarixi təcrübə göstərdi ki, məhz 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlətçiliyimizə qarşı yönəlmiş qanunsuz çevriliş cəhdlərinin qarşısının alınmasında xalq-ordu birliyi həlledici rol oynadı. Bu proseslər sübut etdi ki, silahlı qüvvələrin artıq hansısa siyasi qrupların təsiri altına düşməsi dövrü başa çatmış, ordu öz doğma xalqının və dövlətinin mənafeyini qoruyabilən səviyyəyə yüksəlmişdir.

Ulu Öndərin qeyd etdiyi kimi, xalqla ordunun möhkəm mənəvi birliyi həm dövlətin dirəniş gücünü, həm də ordunun peşəkar və vətənpərvər xarakterini formalaşdıran strateji əsasdır. 1998-ci il mayın 22-də Ümummilli Liderin imzaladığı Sərəncamla Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı 26 iyun tarixi Silahlı Qüvvələr Günü elan olundu və bu tarix hər il rəsmi dövlət bayramı kimi qeyd edilir. Ümummilli Liderin qərarı müstəqil Azərbaycanın hərbi-siyasi quruculuğunda mühüm mərhələ oldu və Silahlı Qüvvələri dövlətçiliyin dayaqlarından biri kimi formalaşdırdı. Heydər Əliyev Azərbaycanın rəhbəri kimi fəaliyyətində daxili sabitlik, xalq-iqtidar birliyini hər zaman əsas prioritet kimi qiymətləndirmişdi. Onun həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət nəticəsində ölkədə sabitlik təmin olundu, bu isə həm ordu quruculuğuna, həm də digər dövlət institutlarının möhkəmlənməsinə zəmin yaratdı. Çünki hər bir xalq üçün daxili əmin-amanlıq və ictimai-siyasi sabitlik inkişafın təməl şərtidir. Lakin sabitliyin yaranması təsadüfi deyil, məqsədyönlü və əsaslandırılmış dövlət siyasətinin nəticəsi olur. Ulu Öndərin fikirləri də bunu təsdiqləyir: "Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq. Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən, güclənən milli ordumuz olmalıdır. Bu, bizim müqəddəs vəzifəmizdir, hər bir kəsin şərəfli vəzifəsidir".

Müstəqil Azərbaycan dövlətinin hərbi quruculuq sahəsindəki əsaslı dönüş nöqtəsi isə Prezident İlham Əliyevin hakimiyyəti dövründə reallaşmışdır. Bu mərhələdə ordu intellektual, ideoloji və psixoloji aspektlərdə də ciddi təkmilləşmişdir. Peşəkar hərbi kadr hazırlığı, müasir texnologiyaların tətbiqi, döyüş qabiliyyətinin artırılması istiqamətində atılan ardıcıl və planlı addımlar nəticəsində Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordularından birinə çevrilmişdir. Müasir dünyada müşahidə olunan mürəkkəb və gərgin geosiyasi mənzərə - hibrid müharibə formalarının genişlənməsi, iqtisadi təzyiq alətlərinin silahlandırılması, separatizmin təşviqi, etnik-dini qarşıdurmaların qızışdırılması və beynəlxalq terrorizmin geniş yayılması region dövlətlərinin milli təhlükəsizlik arxitekturasına ciddi təhdidlər formalaşdırır. Bu proseslər bir daha göstərir ki, mövcud beynəlxalq təhlükəsizlik sistemləri təhlükələr qarşısında kifayət qədər effektiv və dayanıqlı deyil. Belə geosiyasi reallıq fonunda Azərbaycan enerji resursları, strateji nəqliyyat-tranzit imkanları, sabit siyasi idarəetmə modeli və sürətlə inkişaf edən iqtisadi göstəriciləri ilə regional güc mərkəzi kimi ön plana çıxır. Ölkəmizin yerləşdiyi məkan - Avropa ilə Asiyanın kəsişməsində unikal geostrateji zona onu regional maraqların, əməkdaşlıq platformalarının formalaşdığı əsas aktor statusuna yüksəldir. Bu baxımdan, Azərbaycan nəinki müşahidəçi, əksinə, əsas subyekt kimi regional təhlükəsizlik və sabitlik arxitekturasının mühüm dayağıdır.

Azərbaycan Silahlı Qüvvələrinin müasir inkişaf mərhələsi Prezident İlham Əliyev tərəfindən çağırışlara uyğun şəkildə gücləndirildi. Silahlı Qüvvələr texniki-modernizasiyadan tutmuş ideoloji-mənəvi transformasiyaya qədər hərtərəfli dəyişiklik mərhələsinə qədəm qoydu. İnkişaf müasir tipli silahlanma ilə kifayətlənməyib, eyni zamanda milli-mənəvi dəyərlərin ordu strukturuna sistemli inteqrasiyası ilə müşayiət olundu. Orduda vətənpərvərlik ruhunun gücləndirilməsi, hərbi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və peşəkar kadr hazırlığının prioritetləşdirilməsi Azərbaycanın hərbi potensialını həm regional, həm də qlobal miqyasda yüksəltdi. 2016-cı ilin aprel ayında baş verən və cəmi bir neçə gün davam edən lokal hərbi əməliyyatlar Azərbaycan Ordusunun çevik və effektli döyüş qabiliyyətini dünyaya nümayiş etdirdi. Aprel döyüşləri zamanı Talış və Lələtəpə istiqamətində bir sıra strateji yüksəkliklər azad edildi. Həmin döyüşlərdə Azərbaycan Ordusu ilk dəfə olaraq hücum taktikasında dronlardan - xüsusilə "Harop" tipli pilotsuz uçuş aparatlarından (PUA) istifadə etdi ki, bu da döyüş meydanında texnoloji üstünlüyün müasir müharibələrdə həlledici faktor olduğunu ortaya qoydu. Aprel döyüşləri həmçinin, ordunun döyüşü lokal səviyyədə qısa müddətdə həll etmək qabiliyyətinin örnəyi idi. Bu mərhələdə ordunun təlim səviyyəsi, bölmələrarası koordinasiya və strateji planlama bacarığı bir daha öz təsdiqini tapdı və əzəli-əbədi yurd yerimizin azadlığına qovuşmasına zəmin yaratdı. 2020-ci ilin payızında baş vermiş Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin həm taktiki-operativ, həm də strateji səviyyədə dünya hərb tarixində öz modelini formalaşdırdığı mərhələ oldu. Xüsusilə Hadrut və Şuşa əməliyyatları zamanı müşahidə olunan yüksək döyüş koordinasiyası, ordunun müxtəlif qoşun növləri - Xüsusi Təyinatlı Qüvvələr, Hərbi Hava Qüvvələri, Artilleriya və PUA sistemləri arasında sinxronlaşdırılmış fəaliyyəti Azərbaycan Ordusunun müasir döyüş aparma konsepsiyasını dünya hərb sənətinə təqdim etdi. Ən mürəkkəb relyef şəraitində - dağlıq və meşəlik ərazilərdə həyata keçirilmiş Şuşa əməliyyatı xüsusi olaraq tarixə yazıldı. Bu əməliyyatda döyüşçülər piyada şəkildə, texnikasız, gecə şəraitində, sıldırım qayalıqlardan keçərək şəhərə daxil oldular. Şuşa əməliyyatı sübut etdi ki, döyüşçünün ruh yüksəkliyi, milli ideologiyanın gücü və xalqın arxa cəbhədəki dəstəyi qələbədə həlledici rol oynayır.

2022-ci ilin martında həyata keçirilmiş Fərrux yüksəkliyi uğrunda qısamüddətli antiterror əməliyyatı Azərbaycan Ordusunun postmüharibə dövründə də sürətli reaksiya, taktiki təşəbbüs və regional nəzarət qabiliyyətini qoruyub saxladığını göstərdi. Əməliyyatın əsas əhəmiyyəti ondan ibarət idi ki, bu dəfə ordu proaktiv mövqe sərgiləmişdi. Fərrux yüksəkliyinin azad edilməsi nəinki hərbi nəzarətin gücləndirilməsi, həm də regionda separatizmin yenidən baş qaldırmasının qarşısının alınması idi. Həmçinin Ermənistan və onun havadarlarının bölgədə sülhü təhdid edən siyasətinə qarşı sərt və qətiyyətli cavab idi.

Tarix göstərir ki, texnoloji üstünlüyə malik olmaq belə qələbə üçün yetərli deyil. ABŞ-ın Vyetnamda qarşılaşdığı fəlakətli nəticələr, SSRİ-nin Əfqanıstanda illərlə davam edən uğursuzluğu döyüşlərin çoxşaxəli, siyasi və psixoloji mürəkkəbliyini sübut edir. XXI əsrin müharibələri artıq sadəcə tanklarla, toplarla aparılmır. İnformasiya savaşı, psixoloji mübarizə, diplomatik çeviklik və milli konsolidasiya döyüşlərin ayrılmaz komponentləridir. Əgər Birinci və İkinci Dünya müharibələrində fiziki üstünlük - tankların sayı, artilleriya gücü və canlı qüvvə həlledici rol oynayırdısa, XXI əsrdə həlledici amil strateji zehniyyət, informasiya suverenliyi və cəmiyyətin milli birliyidir. Çünki müasir müharibə modeli çoxölçülü xarakter daşıyır: birinci məqam klassik döyüş meydanıdır, burada texnika və canlı qüvvə qarşı-qarşıya gəlir. İkinci məqam informasiya cəbhəsidir, qələbə qazanmaq üçün ictimai rəyi düzgün yönəltmək, dezinformasiyalara qarşı çevik cavab vermək tələb olunur. Üçüncü məqam diplomatik müstəvidir, hərbi uğurlar beynəlxalq hüquqla əsaslandırılmalı, müttəfiqlərlə əlaqələr gücləndirilməlidir.

2020-ci il Vətən müharibəsində döyüşlər paralel olaraq dörd cəbhədə aparıldı: Ordumuz cəbhə xəttində texnoloji və taktiki ustalıqla irəlilədi. İnformasiya müstəvisində beynəlxalq medianın diqqəti altında və informasiya təxribatlarına qarşı çevik cavablarla qalib gəldik. Diplomatik meydanda beynəlxalq hüquqa əsaslanaraq legitim mübarizədə unudulmaz Zəfərimizi dünyaya nümayiş etdirdik. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə elə bir tarixi qələbəyə imza atıb ki, illər keçsə də, unudulmayacaq, gələcək nəsillərə örnək, haqq-ədalət uğrunda mübarizə aparanların ümid işığı olacaq.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**